

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 64 (22.975)

*8 aprel 2018-ci il, bazar*

**Gündəlik ictimai-siyasi qəzet**

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan şəhərində "Gənclər şəhərciyi" yaşayış kompleksi istifadəyə verilmişdir





Muxtar respublikada həyata keçirilən dövlət-gənclər siyasətinin mühüm istiqamətlərindən biri də gənclərin sosial problemlərinin həlli və mənzil şəraitinin yaxşılaşdırılmasıdır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq ölkəmizin "Gənclər Paytaxtı" Naxçıvan şəhərində yeni yaşayış kompleksi – "Gənclər şəhərciyi" inşa olunmuşdur.

Aprelin 7-də Naxçıvan şəhərinin Əziz Əliyev prospektində "Gənclər şəhərciyi" yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

"Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının direktoru Vüqar Abbasov çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən tikinti-quruculuq işlərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması mühüm yer tutur. Hər il yeni yaşayış binaları inşa olunur, mövcud binalar yenidən qurularaq istifadəyə verilir. Həyata keçirilən tədbirlər ailələrin kommunal-məişət şəraitini daha da yaxşılaşdırır, sakinlər tərəfindən razılıq hissi ilə qarşılanır. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı da yaradılmış şəraitdən bəhrələnərək öz layihələri ilə muxtar respublikanın sosial-iqtisadi inkişafında yaxından iştirak edir. Belə layihələrdən biri də bu gün istifadəyə verilən "Gənclər şəhərciyi" yaşayış kompleksidir. Sahibkarlığa Kömək Fondundan layihənin icrasına 3 milyon manat kredit ayrılmışdır. Sahibkarlar üçün yaradılan şərait və göstərilən qayğı bu layihənin də uğurla icra olunmasına imkan verdi. Vüqar Abbasov yaradılan şəraitə görə "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının kollektivi adından minnətdarlıq etmişdir.





"Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Yalçın Vəliyev bildirmişdir ki, muxtar respublikada gənc və aztəminatlı ailələrin mənzil şəraitinin yaxşılaşdırılmasında, əhalinin uzunmüddətli kreditlər vasitəsilə yaşayış sahəsi ilə təmin olunmasında "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti də mühüm rol oynayır. Bu günədək dövlət qulluqçuları, hərbçilər, müəllimlər, həkimlər, polislər və digər sahələrdə işləyən muxtar respublika sakinləri maliyyələşdirilmiş ipoteka kreditlərindən istifadə edərək mənzil sahibi olmuşlar. Ötən dövrdə fondun vəsaiti hesabına əhaliyə, ümumilikdə, 3 milyon 501 min 404 manat məbləğində ipoteka krediti verilmişdir. Bu vəsaitin 1 milyon 98 min 173 manatı və ya 31,4 faizi güzəştli, 2 milyon 403 min 231 manatı və ya 68,6 faizi isə adi ipoteka kreditlərinin payına düşür. Bu gün istifadəyə verilən "Gənclər şəhərciyi" yaşayış kompleksində mənzil almaq istəyən gənc ailələr də ipoteka kreditləşməsi ilə bağlı yaradılan imkanlardan faydalanmışlar. Belə ki, 98 ailə ipoteka kreditindən istifadə edərək "Gənclər şəhərciyi"ndə mənzil sahibi olmuşdur. Bu ailələrdən 26-sı güzəştli, 72-si adi ipoteka krediti götürmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2014-cü ildə təməli qoyulan "Gənclər şəhərciyi" yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: Ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Sahibkarlar da yaradılan şəraitdən istifadə edərək ölkəmizin inkişafına öz töhfələrini verirlər. Bu gün istifadəyə verilən "Gənclər şəhərciyi" yaşayış kompleksi də bu sahədə görülən işlərin nümunəsidir.

Ali Məclisin Sədri demişdir: "Gənclər şəhərciyi" yaşayış kompleksinin təməlinin qoyulması və ilkin kreditin ayrılması dövlət sifarişi əsasında həyata keçirildi. Dövlət tərəfindən yeni yaşayış kompleksinin tikilməsi ilə bağlı təklif hazırlanaraq sahibkarlara təqdim edildi. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı təklifləri qəbul edərək yeni yaşayış kompleksinin tikintisini həyata keçirdi. "Gənclər şəhərciyi" yaşayış kompleksində müasir yaşayış standartlarına cavab verən binalar tikilmiş, xidmət və istirahət sahələri yaradılmışdır. Yeni yaşayış kompleksi həm təhsil müəssisələrinə, həm də ticarət mərkəzinə yaxın ərazidə yerləşir. Vaxtilə yaşayış kompleksinin yerləşdiyi sahə Naxçıvan şəhərinin ən yararsız ərazilərindən biri idi. Lakin insan əməyi, insan zəhməti və göstərilən qayğı bu ərazini Naxçıvan şəhərinin ən abad yaşayış məntəqəsinə çevirdi.

Ali Məclisin Sədri bu işdə əməyi olanlara və təşkilatçılara təşəkkürünü bildirmişdir.

Qeyd olunmuşdur ki, "Gənclər şəhərciyi" yaşayış kompleksinin inşası dövlət və sahibkarların birgə fəaliyyətinin nəticəsində mümkün olmuşdur. Kompleks tikilərkən dövlət tərəfindən ilkin kredit verildi. Qalan vəsait isə şirkətin gəlirləri hesabına ödənildi. Yaşayış kompleksində gənclərin mənzillə təmin olunması üçün dövlətimiz tərəfindən güzəştli ipoteka kreditləri verilir. Bu da dövlətimizin gənclərə və sahibkarlara göstərdiyi qayğının daha bir ifadəsidir. Çünki kompleksdəki mənzillər tam satıldıqdan sonra sahibkar yeni obyektlərin və yaşayış binalarının tikintisinə başlayacaq, yeni iş yerləri açılacaqdır. Bütün bunlar isə ümumilikdə, ölkəmizin inkişafına xidmət edir.

Ali Məclisin Sədri demişdir: O ölkə inkişaf edir ki, orada dövlət-xalq birliyi vardır. Bu gün Naxçıvan şəhərində "Gənclər şəhərciyi" yaşayış kompleksinin istifadəyə verilməsi də dövlət-xalq-sahibkar birliyinin nəticəsidir. Eyni zamanda yeni yaşayış kompleksi ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətinin bəhrəsidir. İnsan həyatında ən vacib məsələlərdən biri onun mənzil sahibi olmasıdır. Yaşayış kompleksində gələcəyimiz olan gənclərin mənzillə təmin olunması onların rahat yaşayışını təmin edəcəkdir. Çünki rahat yaşayış şəraiti rahat həyat deməkdir. Dövlətimiz tərəfindən gənclərin mənzil şəraitinin yaxşılaşdırılması və işlə təmin olunması, onlara güzəştli ipoteka kreditlərinin verilməsi sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Ali Məclisin Sədri "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin kreditləri hesabına mənzil almış sakinlərə açarları təqdim etmiş, onlara rahat və firavan həyat arzulamışdır.

Mənzillə təmin olunan Afin Məmmədov və Səməd Həsənov göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər. Səməd Həsənov demişdir: Muxtar respublikada gənclərin mənzillə təmin olunması diqqət mərkəzindədir. Yeni yaşayış kompleksindəki mənzillər güzəştli ipoteka yolu ilə gənc ailələrə verilir. Artıq muxtar respublikamızda gənclər mənzil sahibinə çevriliblər. Bu da insan amilinə verilən qiymətin daha bir ifadəsidir. "Gənclər şəhərciyi" yaşayış kompleksində mənzil sahibi olan bütün ailələr adından göstərilən qayğıya görə minnətdarlıq edirik.

Ali Məclisin Sədri "Gənclər şəhərciyi" yaşayış kompleksinin açılışını bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, ümumi sahəsi 22 min 860 kvadratmetr olan şəhərcikdə 2 doqquz mərtəbəli, 2 on bir mərtəbəli və 2 on üç mərtəbəli olmaqla, 6 bina inşa olunmuşdur. Binalarda sahəsi 57-59 kvadratmetr olan 24 birotaqlı, sahəsi 62-77 kvadratmetr olan 216 ikiotaqlı, sahəsi 86-104 kvadratmetr olan 192 üçotaqlı və sahəsi 120-142 kvadratmetr olan 24 dördotaqlı mənzil olmaqla, ümumilikdə, 456 mənzil vardır. Mənzillərdən 2-si şəhid ailələrinə verilmiş, 98-i isə ipoteka krediti ilə satılmışdır.

*Ardı 2-ci səhifədə*





Şəhərciyin ərazisində 315 yerlik yeraltı avtomobil dayanacağı inşa olunmuşdur. Hər binanın girişində 1 sərnişin və 1 yük lifti, yanğından mühafizə üçün mərkəzi havalandırma sistemi, həmçinin avtomobil dayanacağına giriş üçün 3 köməkçi lift quraşdırılmışdır. Yanğından mühafizə üçün 200 kubmetrlik, tələbatı ödəmək üçün 520 kubmetrlik iki su anbarı tikilmişdir. Şəhərciyin kommunal-məişət şəraiti və sosial infrastrukturu da ən müasir tələblər səviyyəsində qurulub. Kompleksə fiber-optik şəbəkə çəkilmiş, ərazidə təhlükəsizliyi təmin etmək üçün mərkəzi kamera sistemi quraşdırılmışdır.

Şəhərcikdə 2500 kilovoltamper gücündə transformator, 250 kilovoltamper gücündə generator quraşdırılmışdır. 6 min kvadratmetr ərazidə abadlıq işləri aparılaraq müasir işıqlandırma və suvarma sistemi qurulmuş, həyətdə mini basketbol meydançası, şahmat taxtası və uşaq əyləncə parkı yaradılmışdır. Şəhərciyi "Cahan" Ticarət Mərkəzi ilə birləşdirən yerüstü keçid tikilmişdir.



Ali Məclisin Sədri "Gənclər şəhərciyi" yaşayış kompleksindəki ticarət və xidmət sahələrinə baxmışdır.

Məlumat verilmişdir ki, kompleksdə 54 ticarət və xidmət sahəsi fəaliyyət göstərir. "Banu" ərzaq mağazasında əsasən muxtar respublikada istehsal olunan məhsullar, o cümlədən xarici ölkələrdə istehsal edilən və mənşə sertifikatı olan gündəlik tələbat malları satışa çıxarılır. Burada çörək və şirniyyat sexi də fəaliyyət göstərir. "Meynəli" şərab mağazasında isə muxtar respublikada istehsal olunan spirtli içkilər və dünyanın 20-yə yaxın ölkəsində istehsal olunan 650 çeşiddə məhsul alıcılara təklif olunur. "Simit sarayı" iaşə obyektində isə insanların rahatlığı tam nəzərə alınmışdır.Yaşayış kompleksində 21 yeni iş yeri yaradılmışdır.

Komplekslə tanışlıqdan sonra Ali Məclisin Sədri burada yaşayan sakinlərlə görüşmüşdür. Ali Məclisin Sədri demişdir: Ailənin mənzil rahatlığı həmin ailənin möhkəmliyini də təmin edir. Ölkəmizdə ailələrin rahat yaşayışının və möhkəmliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Müasir yaşayış və xidmət şəraiti olan kompleksdə gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması da həmin ailələrin möhkəmliyini təmin edəcəkdir. "Gənclər şəhərciyi" ən müasir yaşayış standartlarına cavab verir. Burada sakinlərin həm rahat yaşayışı, həm də istirahətləri təmin olunmuşdur.

Ali Məclisin Sədri kompleksdə yaşayan ailələrə və buranın gələcək sakinlərinə rahat həyat arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Muxtar respublikada ekoloji tarazlığın qorunması və kənd təsərrüfatının müasir səviyyədə inkişaf etdirilməsi üçün əhəmiyyətli tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində regionda torpaq münbitliyinin qorunması, bərpası, artırılması və aqrar-sənaye inteqrasiyası əsasında kənd təsərrüfatının inkişaf etdirilməsi üzrə işlər aparılır.***

## Torpaqlardan səmərəli istifadə üsulları tətbiq olunur

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 avqust tarixli Qərarı ilə təsdiq olunmuş "Arazboyu ərazinin ekoloji qiymətləndirilməsinə dair Hesabat"da qeyd olunan məsələlərin həll edilməsi ilə əlaqədar muxtar respublikanın nazirlik, komitə və bir neçə təşkilatları ilə bərabər, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Torpaq ehtiyatları laboratoriyasına da tapşırıqlar verilmişdir. Bunlardan biri də Arazboyu zonada əkinəyararlı ərazilərdə torpaqların münbitliyinin bərpası, artırılması və əkin dövriyyəsinə qaytarılması məqsədilə, xüsusilə yem, o cümlədən paxlalı və digər mədəni bitkilərin əkilməsi üçün tədqiqatların aparılmasıdır.

Bu məqsədlə həmin ərazidə aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, düzənlikdə, əsasən, boz, boz-çəmən, boz-qonur, bataqlıq-çəmən, çəməntipli, çəmən, şoran, allüvial-çəmən və sair torpaqlar yayılmaqla, bu torpaqların əksəriyyətində az da olsa, deqradasiya prosesləri, yəni şoranlaşma, eroziya, bataqlıqlaşma, daşlıq, kol-kos basmış sahələr, antropogen digər təsirlər müşahidə olunur.

Arazboyu zonanın əkinəyararlı sahələrində deqradasiya proseslərinə məruz qalmış sahələri ümumiləşdirərək aşağıdakı kimi göstərmək olar. Məsələn, şoranlaşmaya məruz qalmış sahələr, xüsusilə Böyükdüz düzənliyinin cənub-şərqində, Qabıllı kəndinin ətrafında, Araz çayının çökək sahillərində, bəzi kanalların ətrafında, Çeşməbasar və Əbrəqunus magistral yolunun kənarlarındakı torpaqlardır. Bataqlıqlaşmaya məruz qalmış sahələrdən Sədərək rayonunun cənubunda Araz çayının sahilində, Şərur rayonunun Araz çayına yaxın bəzi kəndlərinin əkin sahələrində, bəzi göllərin sahillərində, çay kənarlarında və müxtəlif çökək ərazilərdəki torpaqları göstərmək olar. Daşlıq sahələrə – Ordubad maili düzənliyinin mərkəzində, qismən Culfa maili düzənliyinin şərq hissəsində çay kənarlarındakı kol-kos basmış sahələrə isə Şahtaxtı və Xok kəndləri arasındakı təpəliklərdə, Culfa rayonunda Darıdağın qərb yamacında, Ordubad maili düzənliyinin rayon mərkəzinə yaxın olan sahələrində böyük həcmdə rast gəlinir.

Tədqiqatlar nəticəsində Arazboyu zonada yuxarıda qeyd etdiyimiz deqradasiya proseslərinin səbəbləri araşdırılaraq torpaqların münbitliyinin bərpası, artırılması və əkin dövriyyəsinə qatılmasının mümkünlüyü müəyyən edilmişdir.

Bunun üçün müasir metodlardan istifadə etməklə, təbii-mədəni, o cümlədən torpaq-iqlim şəraitinə uyğun paxlalı və yem – yonca, şənbəllə, soya və digər bitkilər altında torpaqların qiymətləndirilməsi, aqroistehsalat qruplaşdırılmasının aparılması və münbitlik modellərinin qurulması tələb olunur.

Son illər bu istiqamətdə aparılan elmi-tədqiqat işləri gücləndirilmişdir. Belə ki, torpağın tərkib və xassələrinin ayrı-ayrı bitkilərin məhsuldarlığı ilə əlaqəsinin tədqiqi muxtar respublikamızın torpaqlarının faktik və optimal parametrlərinin işlənməsinə də imkan yaratmışdır.

Bu istiqamətdə aparılan tədqiqat işlərinin nəticəsində yem bitkiləri altında ("Naxçıvan-5" yonca sortu) münbitlik modeli qurulmuşdur. Münbitlik modelini qurmaq üçün ərazidə 2 torpaq tipi – boz və qəhvəyi torpaqlar seçilmişdir.

Yem bitkisi altında boz torpaqlarda münbitlik modelini qurarkən Kəngərli rayonundakı Böyükdüz kəndinin ərazisində olan əkin sahəsindən, qəhvəyi torpaqlarda isə münbitlik modeli qurularkən AMEA Naxçıvan Bölməsi, Bioresurslar İnstitutunun nəzdində olan Nəbatat bağı sahəsindən istifadə olunmuşdur.

"Naxçıvan-5" yonca sortu altında qurulmuş münbitlik modelinin boz torpağında humusun faktik göstəricisi 1,4, optimal göstəricisi 1,8, bunlar arasında fərq isə 0,4 faiz təşkil edirsə, qəhvəyi torpaqlarda isə humusun faktik göstəricisi 3,7, optimal göstəricisi 4, bunlar arasında fərq isə 0,3 faiz təşkil edir. Torpaqların digər parametrləri üzrə aparılan təhlillər əsasında yem bitkiləri altında torpaqların münbitliyini artırmaq üçün də imkanlar göstərilib.

Qurulmuş münbitlik modelində boz torpaqlarda həmin bitki altında nəzarət variantında orta hesabla 750 manata qarşı tətbiq variantında 900 manat, qəhvəyi torpaqlarda isə 1000 manata qarşı 1250 manat xalis gəlir əldə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Arazboyu zonasında "Naxçıvan-5" yonca sortunun əkini üçün yararlı torpaqların münbitlik modelləri üzrə apardığımız tədqiqat işlərinin nəticələri tövsiyə şəklində hazırlanıb və istifadə etmək üçün təsərrüfatlara verilib. Gələcəkdə muxtar respublikada təkcə yonca bitkisi üzrə deyil, regionda becərilən paxlalı bitkilərin altında da uyğun torpaqların münbitlik modellərinin öyrənilməsi istiqamətində elmi-tədqiqat işlərinin aparılması nəzərdə tutulur.

**Sahib HACIYEV**
***aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent***

## Muxtar respublikada baytarlıq xidmətinin səviyyəsi yüksəldilir

***Muxtar respublikada kənd təsərrüfatının, eləcə də onun aparıcı sahələrindən olan heyvandarlığın inkişafı daim diqqət mərkəzində saxlanılır. Əhalinin sağlam və keyfiyyətli ət və süd məhsulları ilə təmin olunması sahəsində ardıcıl tədbirlər görülür, baytarlıq xidmətinin səviyyəsi yüksəldilir, epizootik vəziyyətə tam nəzarət edilir.***

Dövlət Baytarlıq Xidməti tərəfindən mart ayında da ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, ötən ay mərkəzi və rayon baytarlıq laboratoriyalarında bruselyoz xəstəliyinə görə 9736 qan nümunəsi, 218 patoloji nümunə, 5 adda 16 min 771 parazitar nümunə müayinələrdən keçirilmişdir. Profilaktika məqsədilə 6417 baş iribuynuzluda qarayara, 13 min 202 baş iribuynuzluda emkar, 60 min 613 baş iribuynuzluda nodulyar dermatit, 1698 baş iribuynuzluda dabaq, 13 min 362 baş xırdabuynuzluda isə bradzot xəstəliyinə qarşı peyvəndləmə tədbirləri aparılmışdır. Qeyd olunan dövrdə 319 obyektdə dezinfeksiya və dezinseksiya işləri görülmüş, baytarlıq nəzarəti altında olan obyektlərdə 23 dəfə reyd aparılmış, Sanitar-ekspertiza laboratoriyalarında 1259 nümunə orqanoleptik, bakterioskopik, toksikoloji müayinələrdən keçirilmişdir.

Ötən ay muxtar respublikada 953 baş inək və düyədə süni mayalanma aparılmış, keçən ildən mayalanmış inəklərdən 1044 baş cins buzov alınmışdır. Həmçinin yerlərdə sahibkarlarla 2 dəfə görüş təşkil edilmiş, onlara mal-qaraya qulluq, yemləmə, xəstəliklərdən qorunma və digər məsələlər barədə maarifləndirici tövsiyələr verilmişdir. Bundan başqa, 2018-ci ilin birinci rübündə muxtar respublika üzrə 1676 vətəndaşın 36 min 42 arı ailəsi qeydiyyata alınmış və baytarlıq-sanitariya pasportu (şəhadətnamə) verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti***



# Naxçıvanda növbəti “Kətə” festivalı keçirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikamızda milli və mənəvi dəyərlərimizin qorunub saxlanılmasına və təbliğ olunmasına hərtərəfli şərait yaradıb. Göstərilən dövlət qayğısı nəticəsində son illərdə xalq yaradıcılığının ən qədim sahələrindən sayılan süfrə mədəniyyətinin də sistemli şəkildə öyrənilməsi, inkişaf etdirilməsi və tanıdılması istiqamətində ardıcıl işlər görülür. Bu günədək yüksək səviyyədə təşkil olunaraq keçirilmiş “Plov”, “Naxçıvan çörəkləri”, “Arıçılıq məhsulları – bal”, “Göycə” festivalları məhz muxtar diyarımızın zəngin mətbəxini, süfrə ənənələrini özündə əks etdirməklə yanaşı, həm də bu tədbirlərə kütləvi marağın olması ilə diqqət çəkib.*

Aprelin 7-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində başlanan və iki gün davam edəcək “Kətə” festivalı da muxtar respublikanın şəhər və rayonlarına xas müxtəlif çeşiddə kətələrin hazırlanması qaydalarının nümayişi və təbliği baxımından əhəmiyyətli hadisədir.











Tarixi keçmişimizin nostalji ab-havasını milli mətbəximizin zənginliyi ilə qovuşduran Naxçıvanqala artıq ikinci dəfə “Kətə” festivalına şahidlik edirdi. Qələbəliyin hökm sürdüyü muzey kompleksində festivalın şənbə və bazar günlərinə təsadüf etməsi, eyni zamanda havanın günəşli olması muxtar respublika sakinlərinin tədbirdə kütləvi iştirakına şərait yaratmışdı. Həmişə olduğu kimi, bu dəfə də muzey kompleksinin ərazisində muxtar respublikamızın rayonlarından gəlmiş festival iştirakçıları onlar üçün ayrılmış bölmələrdə öz yerlərini tutmuşdular. Eyni zamanda ictimai iaşə xidmətlərinin təşkili də yüksək səviyyədə idi.

Tədbirin aparıcıları iştirakçıları salamladıqdan sonra naxçıvanlıların daha çox yaz mövsümündə hazırladıqları kətə növləri haqqında məlumat verdilər. Qeyd olundu ki, xalqımızın qədim kulinariya mədəniyyətində mühüm yer tutan xəmir yeməkləri içərisində kətə məxsusi dadı ilə seçilir. Keçmiş dövrlərdən bu günə qədər Naxçıvanda bişirilən qarışıq göyərti, şomu, çiriş, gicitkən, mərəçüyüd, balqabaq, mərcimək, cəviz kətələri, halvalı kətə, şirin kətə, döymə kətə çox məşhur olub. Yazın ilk aylarında yeyilə bilən yabanı bitkilərdən hazırlanan kətə çeşidləri Naxçıvan mətbəxində xüsusi yerə malikdir. Muxtar respublikanın iqlim şəraiti burada müxtəlif minerallar və vitaminlərlə zəngin olan və yeyilə bilən yabanı bitkilərin yayılmasına imkan verir ki, belə bitkilərdən hazırlanan kətə də insan orqanizmi üçün faydalıdır.

Qeyd edək ki, festivala gələnlər müxtəlif çeşiddə kətələrin hazırlanması və süfrəyə təqdim olunmasını canlı olaraq izləmək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə etmişlər.

Sədərək rayonundan gəlmiş Ruhiyyə Zamanova bizimlə söhbətində bildirdi ki, festivala rayon ərazisindən yığılmış müxtəlif çeşiddə pencərlər gətirib. Bölgəyə aid stenddə həm gətirilən bu pencərlərin satışı təşkil olunur, həm də onlardan kətələr hazırlanır. Bunun üçün ərazidə təndir qurulub, kətələrin içliyinin hazırlanması üçün lazımi mətbəx ləvazimatları gətirilib. Müsahibimizin sözlərinə görə, festivala gələnlərin mətbəximizin ləziz yemək növlərindən sayılan kətəyə marağı böyükdür.

Ordubad rayonunun Əlahi kəndindən gələn Yaşar Həbibov isə “Kətə” festivalında artıq ikinci dəfədir ki, təsərrüfat sahibi kimi iştirak etdiyini bildirdi: “Ötən il də ailə üzvlərimizlə birlikdə festivalda iştirak etmişdik. Bu dəfə də əliboş gəlməmişik, yaz mövsümündə torpaqlarımızın bərəkəti olan müxtəlif pencər çeşidlərindən yığıb gətirmişik. Həyat yoldaşım isə burada qurulan təndirdə kətə bişirir. Bişirdiyimiz kətələrə də, topladığımız dağ pencərlərinə də maraq böyükdür. Ümid edirik ki, gətirdiyimiz və bişirdiyimiz məhsulların hamısını sata biləcəyik. Yaradılan şəraitə və belə bir tədbirin təşkilinə görə zəhməti olan hər kəsə minnətdarlığımı bildirirəm”.

Festivalda Şahbuzun təbii nemətləri ilə bizi tanış edən Biçənək kənd sakini Mədinə Sarıyeva da tədbirin gedişindən razı idi:

– Şahbuzun əsrarəngiz təbiəti haqqında hamının məlumatı var. Rayon ərazisindəki başıqarlı dağların ətəklərində, dəniz səviyyəsindən minlərlə metr yüksəklikdə yerləşən ərazilərdə çöl-çəmənin hər bir otu, gülü-çiçəyi dərdlərin dərmanıdır. Uzaq keçmişdən üzübəri ululарımız hər bir otun, bitkinin “dilini” bilib, ondan faydalanmağın yolunu öyrəniblər. Buna görə də yaz gələndə hər kəs xıncılovuz, çiriş, kəvər, quzuqulağı və adını sadalamadığım onlarla belə bitkini yığıb bunlardan kətə hazırlayar, müxtəlif yeməklərdə istifadə edərdilər. İndi də belədir. Elə ki yazın gözü açıldı, burnumuza kətə iyi gələr. Həmsöhbətimin sözlərinə görə, keçənilki festivalda olduğu kimi, bu dəfə də xeyli pencər gətirib. Artıq məhsulların böyük bir qismi alıcılar tərəfindən alınıb.

Qeyd edək ki, kətə bişirilmək üçün toplanılmış pencər növlərindən digər yeməklər də hazırlamaq mümkündür. Məsələn, Şahbuz rayonu üçün nəzərdə tutulmuş stendin qarşısında müxtəlif pencər növlərindən həm də qovurularaq yemək hazırlanırdı. Mis qabda yağla qovrulan bu yemək ətrafa xoş ətir yayırdı. Belə pencər yeməklərinə zövqə görə bəzən yumurta da vurula bilər.

Tədbirdə həmsöhbət olduğumuz Naxçıvan şəhər sakini Yusif Həşimov, Culfa rayon sakini Mənsur Süleymanov, Kəngərli rayon sakini Samirə Məmmədova, Babək qəsəbə sakini Nəzakət Zeynalova burada mənalı istirahət etdiklərini, belə mədəni tədbirlərin onlarda xoş ovqat yaratdığını bildirdilər. Yusif Həşimov da təəssüratlarını bizimlə bölüşdü: Belə tədbirlərin keçirilməsi milli mətbəx nümunələrimizin tanıdılması, yaşadılması baxımından faydalıdır. Digər tərəfdən artıq bu gün şəhər sakinləri də muxtar respublikamızda yaz dövründə bitən hər hansı pencəri buradan tapa bilərlər. Qiymətləri də münasibdir. Festivalın təşkilatçılarına öz minnətdarlığımı bildirirəm.

Samirə Məmmədova isə qeyd etdi ki, yaz dövründə Naxçıvanda ən çox bişirilən yeməklərdən biri də müxtəlif göyərti növlərindən hazırlanmış yeməklərdir. Naxçıvan təbiətinin bizə verdiyi çeşidli nemətlər bu gün də süfrələrimizin bəzəyidir. Kimisi bu pencərləri qovurmaqla, kimisə kətə hazırlamaqla ondan istifadə edir. Festivalda satılan kətələrin dadı həm də ondadır ki, bu kətələr təndirdə odunla bişirilir.

Festivala gələnlər arasında Naxçıvanda təhsil alan əcnəbilər də az deyildi. Türkiyəli tələbə Şehriban Sarıhandan festivalla bağlı təəssüratlarını soruşduqda o bunları dedi: “Burada təhsil aldığım müddətdə Naxçıvan mətbəxinin, demək olar ki, əksər yeməklərini dadmışam. Mətbəxiniz çox zəngin və dadlıdır. Elə düşünürəm ki, dünyanın hansı ölkəsindən bura gəlib bu yeməkləri dadan olsa, mütləq bundan ləzzət alacaq. Kətə haqqında onu deyə bilərəm ki, bu, çox dadlı bir yemək növüdür. Onu həm də süfrəyə aylaşmadan, məsələn, yolboyu gedərkən də yemək olar. Dadı çox gözəldir. Məlumatım var ki, bu kətələri Naxçıvanın dağlarında bitən təbii otlardan – siz buna pencər deyirsiniz, – hazırlanır. Deməli, bu dad təbiətdən gəlir. Digər tərəfdən sizin mətbəx mədəniyyətiniz, süfrə təcrübəniz imkan verir ki, dadlı olanı daha ləzzətli şəkildə süfrəyə təqdim edəsiniz. Düşünürəm ki, bu səriştə sizin xalqın mədəniyyətinə məxsusdur. Bu baxımdan Azərbaycan xalqının zəngin mədəniyyətə malik olduğunu düşünürəm”.

Naxçıvan Dövlət Universitetində təhsil alan koreyalı Li Çin Yongqil isə bildirdi ki, kətəni ilk dəfə keçən il, həm də elə bu “Kətə” festivalında dadmışam. İlk dəfə yedim və çox xoşuma gəldi. Quru yemək növü sayılsa da, kətənin içliyi bunu hiss etdirmir. Artıq necə bişirildiyini də öyrənmişəm. Ancaq, təəssüf ki, bunu öz ölkəmdə edə bilməyəcəm, çünki bu pencər növləri orada bitmir. Milli mətbəxinizə çoxdan alışmışam və həddsiz bəyənirəm.

Qeyd edək ki, tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı, Naxçıvan Musiqi Kollecinin “Gənclik” və Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Şəlalə” İnstrumental ansamblının maraqlı çıxışları iştirakçılara xoş ovqat bəxş edib. 23 ictimai iaşə obyektinin və 130 fiziki şəxsin iştirak etdiyi festival bu gün başa çatacaq.

Muxtar respublikanın İqtisadiyyat, Kənd Təsərrüfatı, Mədəniyyət və Turizm nazirlikləri, şəhər və rayon icra hakimiyyətlərinin təşkilatçılığı ilə keçirilən festivalın sonunda “Ən dadlı kətə” nominasiyası üzrə müsabiqənin qalibləri elan olunacaq. Nümayiş olunan məhsullar görünüşünə, çeşid müxtəlifliyi və dadına görə münsiflər tərəfindən seçiləcək, festivalın qalibi, ikinci və üçüncü yerlərin sahibləri müəyyənləşəcək, onlara diplomlar təqdim olunacaq.

✍ **Səbuhi HƏSƏNOV**

# İməciliklər mütəşəkkilliklə davam etdirilir

*Aprelin 7-də Naxçıvan şəhərində və muxtar respublikamızın rayonlarında iməciliklər keçirilib. İməciliklərdə yeni meyvə tingləri əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.*

Naxçıvan şəhərində keçirilən iməcilikdə Naxçıvan-Sədərək, Naxçıvan-Batabat magistral avtomobil yollarının kənarlarında, Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolda, Nəzərabad və Uzunoba kəndlərinin ərazilərindəki terraslarda və digər sahələrdə yeni meyvə tingləri əkilib.

Naxçıvanlı gənclər “Gənclər bağı”nda keçirilən iməcilikdə yaxından iştirak ediblər. Ərazidə əkilən tinglərə aqrotexniki qulluq göstərilib, tinglərin dibi boşaldılıb və suvarma işləri aparılıb. Qeyd edək ki, “Gənclər bağı”nın sahəsi 1 hektardır. İməcilik zamanı tanıtım lövhəsi bərkidilib, ətrafda ayparaşəkilli gülkarlıq salınıb.

Şərur rayon ictimaiyyəti də iməcilikdə fəal iştirak edib, Şərur şəhərinin yol kənarlarında yeni tinglər əkib, onlara aqrotexniki qulluq göstərib. Həmçinin park və xiyabanlarda, eləcə də məktəb həyətlərində iməcilik keçirilib, yeni gül kolları əkilib. Ümumiyyətlə, iməciliklərdə 600 meyvə tingi, 30 həmişəyaşıl ağac, 2500 gül kolu əkilib.

Naxçıvan-Ordubad magistral avtomobil yolunun Babək rayonu ərazisinə gedən yolun kənarlarında 550 meşə və meyvə ağacı əkilib, onlara aqrotexniki qulluq göstərilib.

Ordubad rayon ictimaiyyətinin nümayəndələri də şənbə iməciliyində fəal iştirak ediblər. “Gənclər bağı”nda həmişəyaşıl ağaclar əkilib, sahə daşlardan təmizlənib. 35 hektar damcı ilə suvarılan meyvə bağında isə 200 ting əkilib.



Culfa rayonunda idarə, müəssisə və təşkilatların kollektivləri yaşıllıqlara qulluq göstərib, suvarma işləri aparıblar. Ağacların gövdələri ağardılıb və budama işləri görülüb.

Kəngərli rayonunda iməcilik, əsasən, Naxçıvan-Sədərək magistral yolunun rayon ərazisindən keçən hissəsinin kənarlarında aparılıb. İməcilik zamanı ərazilərdə əkilən həmişəyaşıl ağaclara, gül kollarına və tinglərə aqrotexniki qulluq göstərilib, ərazilər alaq otlarından təmizlənib. Rayon mərkəzi xəstəxanasında və uşaq bağçasının həyətlərində keçirilən iməcilikdə səliqə-sahman yaradılıb. İməciliklərdə rayonun ümumtəhsil məktəblərinin kollektivləri də yaxından iştirak ediblər.

Şahbuz rayonunda ətraf ərazilərdə təmizlik işləri görülüb, yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Bağlarda suvarmalar aparılıb, ağacların gövdələri ağardılıb.

Sədərəkdə iməciliklər Heydərabad qəsəbəsinin park və xiyabanlarında, Sədərək kənd 2 nömrəli tam orta məktəbin ərazisində və “Gənclər bağı”nda keçirilib. Gənclər üçün ayrılmış 2 hektarlıq meyvə bağında və Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı meyvə bağlarında 600 meyvə tingi və 1 hektarlıq sahədə 1200 üzüm kolu əkilib.

**Xəbərlər şöbəsi**

## Şərur Xalq Yallı Ansamblı Türkiyədə uğurla çıxış edib

***Yallılarımızın Vətənimizdən kənarda tanıdılmasında və təbliğində Şərur Xalq Yallı Ansamblının xidmətləri həmişə yüksək qiymətləndirilib. Ansamblın ötən illərdə müxtəlif ölkələrdə – Macarıstan, Rusiya, Almaniya və Polşadakı çıxışları bu baxımdan diqqəti cəlb edir. Folklor kollektivinin qardaş Türkiyə Respublikasına səfərləri də ənənə halını alıb. Ansambl qardaş ölkənin İsgəndərun, Bayburt, İstanbul, Van, Ağrı və başqa şəhərlərində keçirilən tədbirlərdə dəfələrlə ölkəmizi təmsil edib. Folklor kollektivi ötən günlərdə Türkiyədə keçirilən silsilə tədbirlərdə iştirak edib.***



Səfərlə bağlı təəssüratlarını öyrənmək üçün ansamblın direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva ilə həmsöhbət olduq. O dedi ki, budəfəki səfər Türkiyənin Kastamonu şəhərinin 2018-ci ildə Türk dünyasının mədəniyyət paytaxtı olması ilə əlaqədar keçirilən rəsmi açılış mərasimi və Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TURKSOY) təşəbbüsü ilə təşkil edilən Novruz bayramı şənlikləri ilə bağlı idi. Belə bir tədbirdə ölkəmizi təmsil etmək məsuliyyətimizi daha da artırır, Türk dünyasının müxtəlif coğrafiyalarından, ümumilikdə isə 18 ölkədən gəlmiş kollektivlərin arasında olmaq bizdə iftixar doğururdu. Azərbaycanı konsert proqramında Şərur Xalq Yallı Ansamblı və Masallının "Halay" folklor kollektivi təmsil edirdi.

Kimya Babayeva qeyd etdi ki, Şərur Xalq Yallı Ansamblı tədbirin ilk günü Kastamonunun valilik binası önündə çıxış etdi. Kollektivimizin ifa etdiyi "Köçəri", "Göyçəməni", "Söylə" və başqa yallılar böyük coşqu ilə qarşılandı. Həmin gün tədbir Türkiyənin Baş naziri Binəli Yıldırımın, qardaş ölkənin tanınmış ictimai və dövlət xadimlərinin iştirakı ilə şəhərin Atatürk idman salonunda davam etdirildi. Bütün tədbirlər "TRT-Avaz" və Türkiyənin bir çox digər televiziya kanalları vasitəsilə canlı yayımlandı.

Türkiyənin Qara dəniz sahilində yerləşən Kastamonu şəhəri barədə də danışan Kimya xanım bildirdi ki, bu şəhərin qədim və zəngin tarixi, gözəl ənənələri var. 115 minədək əhalisi olan şəhər Milli Qurtuluş Savaşı zamanı azadlıq mücahidlərinin əsas dayaq məntəqələrindən biri olub, 1915-ci ildəki Çanaqqala savaşında 2500-dən çox şəhid verib. "Çanaqqala türküsü" də burada bəstələnib və ifa edilib.

Kastamonuda Türkiyənin bu qədim şəhəri ilə yaxından tanış olduqlarını da qeyd edən Kimya xanım bundan sonra Ankaradakı Yıldırım Bəyazit Universitetində və şəhərin Çubuk rayonunda təşkil edilən Novruz şənliklərində də çıxışlarının olduğunu qeyd etdi. O dedi: Səfərimizin son günlərində İstanbul şəhərinin Bayrampaşa Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən Novruz şənliklərində də iştirak etdik. Hər çıxışımızda tamaşaçılar kollektivimizi hərarətlə alqışladılar. Türkiyəli qardaşlarımızın bizə öz doğmaları kimi münasibət bəsləmələri əsl dostluğun, qardaşlığın nümunəsi idi. Çox səmimi və dostcasına qarşılandığımız qardaş türk torpağından xoş təəssüratlarla ayrıldıq.

**Əli RZAYEV**

---

***Dünən Naxçıvan Dövlət Texniki Kollecində Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə Naxçıvan şəhər ümumtəhsil məktəblərini əhatə edən respublika fənn olimpiadasının yarımfinal mərhələsi keçirilib.***

## Fənn olimpiadası keçirilib

9-11-ci sinif şagirdləri arasında keçirilən olimpiadanın əsas məqsədi ayrı-ayrı fənlər üzrə xüsusi istedadı olan şagirdlərin aşkarlanması, onların bilik və bacarıqlarının qiymətləndirilməsi, həmin fənlərə olan marağı artırmaqdır.

226 şagirdin iştirak etdiyi yarımfinal mərhələsi riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili və ədəbiyyat, coğrafiya və tarix olmaqla, ümumilikdə, 8 fənn üzrə keçirilib. Bacarıqlı, istedadlı, çevik və yaradıcı təfəkkürə malik şagirdlərin iştirak etdiyi olimpiadaya 13 nəfər nəzarətçi-müəllim cəlb olunub. Şagirdlərə fənlər üzrə qapalı test formatında 25 sual təqdim edilib. Sualların cavablandırılmasına humanitar fənlər üzrə 90, dəqiq fənlər üzrə isə 180 dəqiqə vaxt ayrılıb. Hər sual 1 balla qiymətləndiriləcək. Hər bir fənn üzrə 25 sualdan ən azı 20-nə düzgün cavab yazan şagird mərhələni keçmiş hesab olunur və o, final mərhələsinə yüksəlir.

Onu da qeyd edək ki, olimpiadaların respublika mərhələsinin yarımfinal turunun qalibləri yerli təşkilat komitələri, final turunun qalibləri isə respublika təşkilat komitəsi tərəfindən qızıl və gümüş medallar, diplom, tərifnamə, qiymətli hədiyyələr ilə təltif olunacaqlar.

Final mərhələsinin qalibləri diplom və medallarla təltif olunacaq, digər şagirdlərə isə iştirakçı sertifikatı təqdim ediləcək. Həmçinin hər fənn üzrə olimpiadaların ən uğurlu şagirdi seçilərək "Birincilərin birincisi" nominasiyası ilə təltif olunacaq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

---

## Kəngərli rayonunda intellektual oyunlar olimpiadası təşkil olunub



Naxçıvan şəhərinin 2018-ci ildə Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar hazırlanmış tədbirlər planının müvafiq bəndinə əsasən ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş yeniyetmələr arasında intellektual oyunlar olimpiadasının Kəngərli rayon birinciliyi keçirilib.

Yarışlardan öncə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli çıxış edərək olimpiadanın keçirilməsinin məqsədi barədə məlumat verib.

Olimpiada çərçivəsində 4 intellektual oyun – "Nuh yurdu", "Kim? Nə? Hara?", "Vətəni tanı" intellektual oyunları, "İntellektual gənc" bilik yarışması üzrə vahid turnir şəklində keçirilib.

"İntellektual gənc" bilik yarışmasında ilk üç pillədə Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin şagirdi Fidan Qasımlı, həmin kəndin 1 nömrəli tam orta məktəbin şagirdi Bilqeys Rüstəmli və Çalxanqala kənd tam orta məktəbinin şagirdi Qaybalı Qaybalıyev qərarlaşıblar.

"Kim? Nə? Hara?" intellektual oyununda Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Ağayar Həsənli birinci, Böyükdüz kənd tam orta məktəbinin şagirdi Tərlan Təmoyeva ikinci, Xok kənd tam orta məktəbinin şagirdi Yəhya Cəfərov üçüncü olublar.

"Vətəni tanı" intellektual oyununda Qıvraq kənd tam orta məktəbinin "Göytürk" komandası bütün rəqiblərini qabaqlayıb. Xok kənd tam orta məktəbinin "Kürşad" və Yurdçu kənd tam orta məktəbinin "Yurd" komandaları müvafiq olaraq ikinci və üçüncü pillədə qərarlaşıblar.

"Nuh yurdu" intellektual oyununda qalib adını Yurdçu kənd tam orta məktəbinin "Yurd" komandası qazanıb. Digər iki pillədə isə Böyükdüz kənd tam orta məktəbinin "Möminə xatın" və Qıvraq kənd tam orta məktəbinin "Turan" komandaları qərarlaşıblar.

Qaliblərə diplom, fəxri fərmanlar və oxunması zəruri olan kitablar təqdim olunub.

Qeyd edək ki, qalib komandalar may ayında təşkil olunacaq intellektual oyunlar olimpiadasının muxtar respublika birinciliyində Kəngərli rayonunu təmsil edəcəklər.

Olimpiada Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

---

## Mart ayında səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini mart ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, idarəolunan yoluxucu xəstəliklərin immunoprofilaktikası məqsədilə peyvənd materialları, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə müasir tibbi avadanlıqlar və dərman preparatları gətirilib.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Naxçıvan şəhəri təhsil müəssisələrinin işçilərindən 245 nəfər qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, 18 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib.

Muxtar respublikanın Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq 24 mart – Beynəlxalq Vərəmlə Mübarizə Gününə dair tədbirlər həyata keçirilib. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında, Ordubad və Şərur Rayon Mərkəzi xəstəxanalarında 24 mart – Beynəlxalq Vərəmlə Mübarizə Günü ilə əlaqədar elmi-praktik seminarlar keçirilib.

"Dünya Qlaukoma Həftəsi" çərçivəsində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən Naxçıvan Respublika Xəstəxanasında aksiya keçirilərək 150 nəfərdə, Şahbuz Rayon Mərkəzi Xəstəxanasında isə 72 nəfərdə müayinələr aparılıb.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olub, xüsusi təhlükəli infeksiyalar qeydə alınmayıb. Rayon gigiyena və epidemiologiya mərkəzləri kollektivlərinin iştirakı ilə dezinfeksiya tədbirləri davam etdirilib.

Səhiyyə sistemində kadrların bilik və bacarıqlarının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. İş yerində təcrübə keçməsi üçün 3 həkim və 1 orta tibb işçisi Bakı, 1 həkim isə Naxçıvan şəhərinə, 30 mama isə Naxçıvan Tibb Kollecində təkmilləşmə kursuna göndərilib.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında pediatriyanın aktual problemlərindən olan pediatrik reanimasiyaya dair elmi-praktik seminar keçirilib. Tədbirdə uşaq əhalisinin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısından bəhs olunub.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən mart ayı ərzində 4 nəfər Bakı şəhər Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 15 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 18 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi mətbuat xidməti***

---

## 2018-ci ilin aprel ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) Məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Heydərabad Qəsəbə Mərkəzi | 13.04.2018 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 16.04.2018 | $11^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər "Araz" kinoteatrının binası | 17.04.2018 | $11^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 18.04.2018 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 19.04.2018 | $11^{00}$ |
| 6. | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 20.04.2018 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 23.04.2018 | $11^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 24.04.2018 | $11^{00}$ |

---

## Culfa rayonunda futbol birinciliyinə start verilib

Culfa rayon stadionunda rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyi, futbol federasiyasının rayon bölməsi və "Əlincə" Futbol Klubunun təşkilatçılığı ilə rayon ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında futbol üzrə rayon birinciliyinə start verilib.

Birinciliyin reqlamentinə əsasən komandalar iki yarımqrupda olimpiya sistemi üzrə mübarizə aparacaqlar. Görüşlər isə Culfa şəhər və Bənəniyar kənd stadionlarında keçiriləcək.

Turnirdə 14 komandanın tərkibində 252 yeniyetmə iştirak edir.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 266